**“Seçkilərdə (referendumda) səsvermə günü istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin Siyahısı”na dəyişikliklər edilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

# Q Ə R A R I

“Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanının 2-ci hissəsinin icrası ilə əlaqədar olaraq Mərkəzi Seçki Komissiyasının “Seçkilərdə (referendumda) səsvermə günü istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin Siyahısı”nın 3-cü hissəsinə müvafiq dəyişikliklər edilməlidir.

Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində həmin dəyişikliklərin rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci və 78.3-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. Mərkəzi Seçki Komissiyasının 2013-cü il 18 iyun tarixli 6/47 Qərarı ilə təsdiq edilmiş “Seçkilərdə (referendumda) səsvermə günü istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin Siyahısı”na aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“icazə vəsiqəsi[2]”

1.2. Aşağıdakı məzmunda yarımbənd əlavə edilsin:

“3.1.2. şəxsiyyət vəsiqəsi[3].”

1.3. 3.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin və bu bəndə aid “[2]Qeyd:” qüvvədən düşmüş hesab edilsin:

“icazə vəsiqəsi”

Aktın sonuna aşağıdakı məzmunda 2-ci və 3-cü qeyd əlavə edilsin:

“[2]Qeyd: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş onların ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəd.

[3]Qeyd: 16 yaşına çatdıqdan sonra vətəndaşlığı olmayan şəxsə “Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında” Əsasnaməyə uyğun olaraq verilmiş sənəd.”

2. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov